**Bolqarıstanın Sofiya şəhərində "İNOGATE" Proqramı çərçivəsində energetika statistikası və enerji balansı mövzusunda seminar keçirilmişdir**



Dövlət Statistika Komitəsinin nümayəndələri Sənaye və tikinti statistikası şöbəsi müdirinin müavini Ə.Kərimov və baş məsləhətçisi N.Sivkova İNOGATE Proqramı çərçivəsində 2013-cü ilin noyabrın 5-dən 7-dək Bolqarıstanın Sofiya şəhərində keçirilən seminarda iştirak etmişlər.

İNOGATE Proqramı Avropa İttifaqı ilə tərəfdaş ölkələr olan Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri arasında keçirilən energetika sahəsində beynəlxalq layihədir. Seminarda Azərbaycan, Gürcüstan, Moldava, Ukrayna, Qırğızıstan, Tacikistan, Qazaxıstan, Belarus və Ermənistandan olan nümayəndələr iştirak edirdi. Proqramın koordinasiyası Kiyev şəhərində yerləşən Texniki Katiblik tərəfindən aparılmışdır. Tədbir energetika statistikası sahəsi üzrə mütəxəsislərin ixtisasartırma və Bolqarıstan Milli Statistika İnstitutunun (bundan sonra - BMSİ) energetika statistikası üzrə fəaliyyəti ilə yaxından tanışlıq məqsədi daşıyırdı.

Ümumilikdə 3 gün davam edən seminarda məruzəçilər tərəfindən 14 təqdimat edilmişdir.

Seminarın proqramı üzrə məruzəçilər "Bolqarıstanda energetika statistikasının əhatə dairəsi", "Energetika məlumatları toplusunun sistemi - enerji təchizatı", "Yanacaq – energetika balansının tərtibi" və "Energetika sahəsində dayanaqlı energetikanın inkişafı üçün siyasət və strategiya" və s. mövzular üzrə geniş təqdimatla çıxış etmişlər.

Ev təsərrüfatlarında enerjinin son istehlakı ilə bağlı 2010-cu ildə keçirilmiş müayinədə əsas məqsəd ev təsərrüfatlarında enerji istehlakının strukturu üzrə məlumatların toplanması, enerji effektivliyi, texnologiyalar barəsində məlumatların verilməsi və mənzillərin enerji istehlakı ilə bağlı xarakteristikasının qiymətləndirilməsi olmuşdur.